**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№367/3** **30 iyul 2024-cü il**

**Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 8.3-cü "Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinin monitorinqi və təhlili" bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun rəhbərliyi ilə Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Z.Almazov tərəfindən hazırlanmış “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar” bəyənilsin və tətbiqi məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərində “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”ın tətbiq edilməsini təmin etsinlər.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2025-ci ilin I rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar” mövzusunda seminarın keçirilməsi təmin edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”ın auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.
5. Bu qərarın və “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”ın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.
6. Bu qərarın mətni Azərbaycan, ingilis və rus dillərində Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**